**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# NEFT GƏLİRLƏRİNDƏN DÖVLƏT BÜDCƏSİ VASİTƏSİ İLƏ İSTİFADƏ MEXANİZMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

İxtisas: 5301.01 – "Daxili fiskal siyasət və dövlət maliyyəsi"

Elm sahəsi: 53 - İqtisad elmləri

İddiaçı: **Orxan Təşəkkül oğlu Sadıqov**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2025**

Dissertasiya işi Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) yerinə yetirilmişdir.

**Elmi rəhbər:** iqtisad elmləri doktoru, professor
**Ümüdvar Qənbər oğlu Əliyev**

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru
**Saleh Məmmədəli oğlu Məmmədov**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Azim Heydər oğlu Abbasov**

iqtisad üzrə fəlsəfə doktoru
**Orxan Mübariz oğlu Bağırov**

Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komisiyasının Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində fəaliyyət göstərən ED 2.10 Dissertasiya şurası

**Dissertasiya şurasının sədri:** iqtisad elmlərui doktoru, professor
**Yaşar Atakişi oğlu Kəlbiyev**

**Dissertasiya şurasının elmi katibi:** iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Suqra İnqilab qızı Hümbətova**

**Elmi seminarın sədri:** ____________ iqtisad elmləri doktoru, professor
**Nizami Nəcəfqulu oğlu Xudiyev**

İmza

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Son illər neftin qiymətinin aşağı düşməsi neft ixrac edən ölkələrin iqtisadiyyatına mənfi təsir göstərmiş və nəticədə iqtisadi artım sürətinin azalmasına səbəb olmuşdur. Bir sıra dövlətlər cari hesablar balansında yarana biləcək problemləri və artan büdcə kəsirini aradan qaldırmaq üçün milli valyutalarını devalvasiya etmişlər ki, nəticədə əksər ölkələrin iqtisadiyyatlarında yüksək inflyasiya riski yaranmışdır.

Azərbaycan Respublikası Dövlət Neft Fondundan dövlət büdcəsinə yönəldilən transfertlər əsasında təmin edilən dövlət büdcəsi gəlirlərində neft faktorunun tənzimlənməsi yeni bir çox fiskal çağırışların və yeni yanaşmaların tətbiqini zəruri edir.

Dünya neft bazarının yüksək dərəcədə qeyri-müəyyənliyi və həssaslığı, neft gəlirlərinin getdikcə azalması şəraitində, dövlət büdcəsi xərclərinin iqtisadi artımı daim dəstəkləməsində məhdud rolunu nəzərə alaraq, habelə aşağı neft qiymətlərinin üzə çıxardığı yeni reallıqlar və imkanlar kontekstində, o cümlədən dünyada rəqəmsal iqtisadiyyata qlobal transformasiya proseslərinin sürətləndiyi bir dövrdə, habelə işğaldan azad olunmuş tarixi ərazilərin bərpası və ölkə iqtisadiyyatına reinteqrasiyası fonunda Azərbaycan iqtisadiyyatının inkişaf və artım modelinin tamamilə yeni bir keyfiyyətə keçməsi məsələləri daha da aktuallaşmışdır.

Aşağı neft qiymətləri fonunda neft gəlirlərinin və dövlət büdcəsi xərclərinin daxili tələbin maliyyələşməsində və genişləndirilməsində rolunun kiçilməsi və nəticədə daxili tələb üzərindən iqtisadi artımı generasiya etmək imkanlarının məhdudlaşması şəraitində xarici tələbə (ixraca) yönəlik iqtisadi artım modelinin təşəkkül tapması əsas strateji çağırışdır.

Həmçinin dövlət büdcəsində xərc və investisiya üzrə intizamın təmin edilməsi və neft gəlirlərinin istifadəsi baxımından mütərəqqi mexanizmin tətbiqi məqsədəuyğun hesab olunur.

Qeyd olunanlarla yanaşı büdcə dayanıqlılığının təmin edilməsi, qabaqcıl ölkələrin təcrübəsi öyrənilməklə neft gəlirlərindən dövlət büdcəsi vasitəsi ilə istifadə mexanizminin təkmilləşdirilməsi, nəticə-əsaslı büdcəyə, habelə "yaşıl iqtisadiyyat"a və "yaşıl maliyyələşmə"yə

müvafiq qaydada keçid və OMXÇ-nin tətbiqi ölkə iqtisadiyyatı üçün qarşıya qoyulmuş əsas hədəflərdəndir.

Belə ki, dövlət xərclərinin nəticəəsaslılığının və effektivliyinin artırılması, layihə (proqram) idarəetməsinin və neft gəlirlərindən istifadədə dayanıqlı mexanizmin tətbiqi aktual olaraq qalmaqdadır.

Azərbaycanda və bir çox dünya ölkələrində (xüsusilə neft ölkələrində) dövlət maliyyəsi sahəsində dayanıqlı fiskal siyasət, neft gəlirlərindən səmərəli istifadə olunması, dövlət büdcəsinə neft gəlirlərindən transfertin optimal həddin müəyyən ediməsi, qeyri-neft sektorunun inkişafı və s. məsələlərə daim müraciət olunur və tədqiq edilir.

Lakin, qeyd olunmalıdır ki, neft gəlirlərindən istifadə və dayanıqlı fiskal siyasət sahəsində müəyyən tədqiqatlar aparılsa da ölkəmizdə fiskal siyasətlə bağlı əsasən vergi, gömrük və digər məsələlər daha çox araşdırılmışdır.

Ümumilikdə fiskal siyasət və neft gəlirlərindən istifadə sahəsində Azərbaycanın bir sıra alimlərini, o cümlədən Ə.C.Muradov, Ü.Q.Əliyev, Ə.Ə.Ələkbərov, M.X.Həsənli, D.A.Bağırov, M.M.Sadıqov, V.İ.Bayramov, Y.A.Kəlbiyev, M.A.Atakişiyev, S.M.Məmmədov, S.İ.Hümbətova və başqalarının əsərlərini xüsusilə qeyd etmək olar.

Neft gəlirlərindən səmərəli istifadə, dayanıqlı inkişaf istiqamətində xarici alimlər tərəfindən çox saylı tədqiqatlar aparılmışdır. Alimlərdən J.D.Hamilton, D.N.Hyman, J.Gruber, L.Ghalayini, P.Daniel, A.Khayati, V.Mignon, L.Francois, E.P.Kiselitsa, S.S.Laurence və başqalarını göstərmək olar.

Eyni zamanda bu sahədə BVF (The International Monetary Fund), DB (The World Bank) və digər nüfuzlu maliyyə institutlarının əhəmiyyətli tədqiqatları olmuşdur.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini dövlət büdcəsi, fiskal dayanıqlıq, qeyri-neft sektorunun inkişafı və neft gəlirlərindən səmərəli istifadənin təhlili təşkil edir.

Tədqiqatın predmetini qabaqcıl neft ölkələrinin və beynəlxalq maliyyə institutlarının neftdən səmərəli istifadə sahəsində apardıqları tədqiqatlar öyrənilməklə dövlət büdcəsi vasitəsi ilə neft gəlirlərindən səmərəli istifadənin istiqamətlərinin müəyyən edilməsi və təkmilləşdirilməsi təşkil edir.

**Tədqiqatın məqsədi və vəzifələri.** Qısa və uzunmüddətli dövrdə Azərbaycan iqtisadiyyatının karbohidrogen ehtiyatlardan, o cümlədən neft amilindən asılılığının azaldılması zəruridir. Dissertasiya işimdə gözlədiyim nəticə neftin qiymətlərindən fiskal asılılığın azaldılması, neft gəlirlərindən dövlət büdcəsi vasitəsi ilə səmərəli istifadə olunmasının yollarının araşdırılması, müəyyən edilməsi, düzgün tətbiq edilməsi və makroiqtisadi göstəricilərə neft gəlirlərinin təsirinin qiymətləndirilməsidir.

Eyni zamanda məqsədim bu sahədə araşdırma nəticəsində dayanıqlı fiskal siyasətin və neft gəlirlərindən optimal istifadənin yollarının müəyyən edilməsidir.

Bu məqsədlərə çatmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi qarşıya qoyulmuşdur:

- ✓ Qabaqcıl neft ölkələrinin neft gəlirlərindən səmərəli istifadə mexanizminin öyrənilməsi;
- ✓ Qeyri-neft sektorunun inkişafının əsas istiqamətlərinin müəyyən edilməsi;
- ✓ Neft gəlirləri və büdcə xərcləri arasında olan asılılığın korrelyasiya-reqressiya əlaqəsinin müəyyən edilməsi;
- ✓ DB və BVF tərəfindən neft ölkələri üçün tövsiyə olunan OMXÇ-nin (medium-term framework) ölkəmizdə tətbiqi imkanlarının araşdırılması;
- ✓ Dövlət büdcəsi vasitəsi ilə neft gəlirlərinin iqtisadiyyata əlverişli şəkildə inyeksiya edilməsi yollarının müəyyən edilməsi və "yaşıl büdcə" çərçivəsinin tədqiq edilməsi;
- ✓ Neft qiymətlərinin dünya bazarında voliteliyindən (dəyişkənliyindən) asılı olmadan dayanlqlı fiskal siyasətin təmin olunması perspektivlərinin tədqiq edilməsi;
- ✓ Dövlət maliyyə nəzarəti istiqamətində səmərəliliyinin artırılması yollarının tədqiq edilməsi;
- ✓ Neft gəlirləri hesabına daxili istehsalın inkişaf etdirilməsi, ixracın təşviq olunması və sözügedən gəlirlərin insan kapitalına çevrilməsi imkanlarının araşdırılması;
- ✓ Neft gəlirlərinin dövlət büdcəsində və neft sektorunun ÜDM-də çəkisinin təhlil olunması, o cümlədən neft gəlirləri ilə ÜDM

arasındakı mövcud asılılığın elastiklik əmsalının təyin edilməsi və digər vəzifələr.

**Tədqiqat metodları.** Azərbaycan Respublikasında neft gəlirlərindən səmərəli istifadə, iqtisadi diversfikasiya və nəticəəsaslı büdcəyə keçid məsələlərinin araşdırılması istiqamətində aparılmış tədqiqat işində bir çox statistik materiallar araşdırılmış və neft gəlirlərindən istifadədə qabaqcıl neft ölkələrin mütərəqqi təcrübəsi öyrənilmiş, habelə ölkəmizdə və dünyada sözügedən istiqamətlər ilə əlaqədar konkret faktlar elmi əsasda kompleks şəkildə təhlil edilmişdir.

Tədqiqat işində qeyd olunanlarla yanaşı iqtisadi statistik təhlil, müqayisə və proqram məqsədli yanaşma, riyazi modelləşdirmə və elmi abstraksiya kimi üsullardan istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Dissertasiya işində dövlət büdcəsi vasitəsilə neft gəlirlərindən səmərəli istifadə olunması və həmin neft gəlirlərinin ölkə iqtisadiyyatına düzgün və əsaslandırılmış formada inyeksiya edilməsinin təhlili fonunda bir sıra təkliflər və əsaslandırılmış fikirlər irəli sürülmüşdür.

Bununla əlaqədar aşağıdakıları qeyd etmək olar:

1. Qeyri-neft sektorunun inkişafı və fiskal dayanıqlılığın təmin edilməsi məsələlərinin araşdırılması zəruridir;
2. Dövlət büdcəsinin neft sektorundan daxil olan vəsaitlərdən asılılığının azaldılması və ölkə iqtisadiyyatının rəqabətqabiliyyətli milli iqtisadiyyata transformasiyası diqqət mərkəzində olmalıdır;
3. Neft gəlirlərindən istifadədə dünya təcrübəsinin öyrənilməsi və Azərbaycanda neft gəlirlərinin idarə olunması sisteminin təhlil edilməsi labüddür;
4. Dövlət büdcəsi vasitəsi ilə neft gəlirlərinin optimal qaydada ölkə iqtisadiyyatına inyeksiya edilməsi və iqtisadiyyatın texnoloji bazasının və intellektual səviyyəsinin yüksəldilməsinin təmin edilməsi mühümdür;
5. Qabaqcıl neft ölkələrinin təcrübəsinə əsaslanmaqla yaşıl iqtisadiyyat və yaşıl maliyyələşmə konsepsiyasının, o cümlədən yaşıl büdcə çərçivəsinin tədqiqi və tətbiqinin öyrənilməsinə ehtiyac yaranmışdır;

6. Neft gəlirlərinin iqtisadiyyatın real sektoruna inyeksiyası və iqtisadiyyatın diversifikasiyası məsələlərinin öyrənilməsi faydalıdır;
7. Ölkə iqtisadiyyatında baş verə biləcək böhranlı (depression) vəziyyət üçün ehtiyatların artırılması və qeyri-neft büdcə kəsrinin minimuma endirilməsinə ehtiyac vardır;
8. Büdcə xərcləri və neft gəlirləri, habelə ÜDM və neft sektoru arasında asılılıqların ekonometrik modellərlə müəyyən edilməsi vacibdir;
9. Neft gəlirlərindən istifadədə nəsillərarası ədalətli bölgünün təmini, şəffaflığın artırılması və nəticəəsaslı büdcə mexanizminin hazırlanması mühüm olaraq qalmaqdadır;
10. Neft gəlirlərindən post muharibə dövründə səmərəli istifadə, dayanıqlı iqtisadi inkişafın və makroiqtisadi dayanıqlılığın təmin edilməsi əsas şərtlərdəndir;
11. İcmal büdcənin baza xərclərinin dəyişməsinin qeyri-neft ÜDM-ə, icmal büdcənin qeyri-neft gəlirlərinə və ümumilikdə icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ÜDM-ə nisbət göstəricisinə təsirinin ekonometrik modellər əsasında qiymətləndirilməsi mühümdür;
12. ÜDM-də qeyri-neft amilinin və dövlət büdcəsinin gəlirlərində qeyri-neft gəlirlərinin çəkisinin yüksəldilməsi zəruri olaraq qalmaqdadır.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işində ilk dəfə olaraq neft qiymətlərinin dünya bazarında konyukturası baxımından fiskal dayanıqlıq problemi nəzəri və təcrübi əsasları araşdırılmış, dövlət büdcəsinin neft gəlirlərindən asıllığının azaldılması yolları konkret göstərilmiş, neft sektorunun ÜDM-də və neft gəlirlərinin dövlət büdcəsində çəkisi qiymətləndirilməklə müvafiq modellər hazırlanmış və neft gəlirlərinin dövlət büdcəsi vasitəsi ilə iqtisadiyyata səmərəli inyeksiya olunmasının üsulları elmi cəhətdən sübuta yetirilmişdir.

Müəllif tərəfindən müdafiəyə təqdim olunan və tədqiqat aparılan istiqamətdə elmi yeniliklər aşağıdakılardan ibarətdir:

- Qeyri-neft sektorunun inkişafı və qeyri-neft gəlirlərinin dövlət büdcəsində çəkisinin artırılması perspektivləri təhlil edilmiş və yeni təkliflər irəli sürülmüşdür;

- Qabaqcıl neft ölkələrinin təcrübəsi öyrənilməklə uzunmüddətli perspektivdə dövlət büdcəsinin neft gəlirlərindən asılılığının azaldılması yolları konkret göstərilmiş, habelə iqtisadi, o cümlədən ixrac diversfikasiyası təmin edilməklə daxili istehsalın təşviq olunmasının əhəmiyyəti sübuta yetirilmişdir;
- "Yaşıl maliyyələşmə" konsepsiyasının və "yaşıl büdcə" çərçivəsinin ölkəmizdə tətbiqinin zəruriliyi elmi və praktiki cəhətdən əsaslandırılmış, habelə tətbiqi perspektivləri göstərilmişdir;
- İqtisadi və sosial prioritetlərlə neft gəlirlərinin bölüşdürülməsi prosesini əlaqələndirmək istiqamətində yeni yanaşmalar verilmişdir;
- Ortamüddətli büdcə planlaşdırılmasında və nəticəyönümlü büdcələşdirməyə keçmək istiqamətində mexanizmlərin təkmilləşdirilməsi yolları təqdim olunmuşdur;
- Büdcə xərcləri ilə neft gəlirləri arasında asılılığın korrelyasiya-reqressiya əlaqəsi təhlil edilərək müvafiq riyazi model hazırlanmış və həmin model əsasında qiymətləndirmə aparılmışdır;
- Neft gəlirlərinin nəsillərarası ədalətli bölgü məsələsinə, ARDNF-dən dövlət büdcəsinə transfertlərin optimal həddinin müəyyən edilməsi probleminə yeni prizmadan yanaşılmaqla əsaslandırılmış tövsiyələr və təkliflər işlənib hazırlanmışdır;
- İcmal büdcənin baza xərclərinin ticari və qeyri-ticari olmaqla qeyri-neft ÜDM-ə təsirləri müvafiq ekonometrik modellər əsasında təhlil edilərək qiymətləndirilmişdir;
- Ticari və qeyri-ticari olmaqla qeyri-neft ÜDM-in icmal büdcənin qeyri-neft gəlirlərinə təsirləri riyazi modellər əsasında müəyyən edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiyada bir çox iqtisadçı alimlərin, mütəxəssislərin neft gəlirləri və ondan səmərəli istifadə barədə tədqiqatları geniş təhlil olunmuşdur. Bu zaman fiskal dayanıqlıq, neft gəlirlərinin dövlət büdcəsi vasitəsi ilə iqtisadiyyata düzgün inyeksiyası və qeyri neft sektorunun inkişafı kimi məsələlərə xüsusi diqqət yetirilmişdir.

Tədqiqatın nəticələri və irəli sürülən təklif və tövsiyələr makroiqtisadi səviyyədə dövlət büdcəsinin hazırlanmasına, icrasına

nəzarət edən və neft gəlirlərinin idarə olunmasını həyata keçirən müvafiq dövlət qurumları tərəfindən istifadə oluna bilər.

Dissertasiya işinin materiallarından (o cümlədən elmi yeniliklər və təkliflər) tədris-metodiki materialların işlənməsində, habelə UNEC və başqa təhsil müəssisələrində makroiqtisadiyyat, maliyyə və digər analoji fənlərin tədrisində mühazirə materialı kimi istifadə edilə bilər.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Tədqiqatın əsas müddəaları, əsaslandırılmış tövsiyyələr və təkliflər respublikada keçirilmiş elmi-praktiki konfranslarda, habelə beynəlxalq elmi-praktiki konfranslarda məruzə edilmiş, dissertasiyanın mövzusuna dair elmi məqalələr və tezislər ölkədə və beynəlxalq səviyyədə tanınan nüfuzlu elmi bazalarda indeksləşən jurnallarda nəşr olunmuşdur.

Belə ki, müəllifin Scoups və digər elmi bazalara daxil olan 1 (bir) məqaləsi Türkiyə Cumhuriyyətində "İnternational Journal of Energy Economics and Policy" jurnalında dərc olunmuşdur.

Eyni zamanda Azərbaycan Respublikasının Təhsil Nazirliyinin və Azərbaycan Dövlət Pedaqoji Universitetinin 2018-ci ildə birgə təşkil etdiyi "Doktorontların və gənc tədqiqatçıların XXII Respublika Elmi Konfransı"nda və Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Memarlıq və İnşaat Universitetinin 2019-cu ildə təşkil etdiyi "Doktorontların və gənc tədqiqatçıların XXIII Respublika Elmi Konfransı"nda müəllif tezislərlə çıxışlar etmiş və həmin tezislər müvafiq qaydada nəşr olunmuşdur.

Bundan başqa müəllifin iki tezisi (Economic development and sustainable fiscal policy for oil countries və Oil revenues, fiscal Framework and Economic development: The case of Azerbaijan) müvafiq olaraq 2020-ci ildə keçirilmiş və "CPCI (Web of Science), ProQuest, EconLit və EconBIZ" kimi nüfuzlu elmi bazalarda indeksləşən "Economic and Social Development, 54th International Scientific Conference on Economic and Social Development" və "Economic and Social Development, 57th International Scientific Conference on Economic and Social Development" konfraslarının materiallarında nəşr olunmuşdur.

Bununla yanaşı müəllifin elmi rəhbərlə birlikdə hazırladığı "Efficient use of oil revenues in post-pandemic and post-conflict periods: The case of Azerbaijan" adlı məqaləsi 2022-ci ildə "TURAN

Stratejik Araştırmalar Merkezi"nin təşkil etdiyi və bir çox nüfuzlu elmi bazalara daxil olan "IV Scientific Conference of Economics and Management Researches" konfransının materiallarında dərc olunmuşdur.

Ümumilikdə tədqiqat prosesində 16 elmi əsər çap olunmuşdur.

**Dissertasiya işinin hazırlandığı (yerinə yetirildiyi) təşkilat.** Sözügedən dissertasiya işi Azərbaycan Dövlət İqtisad Universitetində ərsəyə gəlmişdir.

**Dissertasiyanın həcmi və qruluşu.** Dissertasiya işi giriş (13357 işarə), 3 fəsil (I fəsil – 69603 işarə, II fəsil – 98536 işarə, III fəsil – 96105 işarə), 11 paraqraf, nəticə (10067 işarə) və 137 adlı istifadə olunmuş ədəbiyyat siyahısından, 9 cədvəl, 21 qrafik, 6 sxem və 1 şəkildən ibarətdir. Dissertasiya işi cədvəl, qrafik, sxemlər və ədəbiyyat siyahısı istisna olmaqla 278801 işarədən tərtib olunmuşdur.

## DİSSERTASİYA İŞİNİN STRUKTURU

**GİRİŞ**
**I Fəsil. Azərbaycan iqtisadiyyatının formalaşmasında neft amili**
1.1. Neft gəlirlərindən istifadənin nəzəri-metodoloji əsasları və dünya təcrübəsi
1.2. Azərbaycanda neft sənayesinin tarixi inkişaf mərhələləri
1.3. Azərbaycanın sosial-iqtisadi inkişafında neft gəlirlərinin rolu
**II Fəsil. Neft gəlirlərindən istifadənin müasir vəziyyətinin təhlili**
2.1. Neft gəlirlərindən istifadədə müasir çağırışlar
2.2. Azərbaycanda neft gəlirlərinin idarə olunması sistemi, ARDNF və onun büdcə transfertlərində rolunun təhlili
2.3. Azərbaycan Respublikasında tətbiq olunan büdcə qaydasının təhlili və onun ekonometrik modellər əsasında qiymətləndirilməsi, neft gəlirlərinin dəyişkən dinamikası və fiskal dayanıqlıq probleminin tədqiqi
2.4. Ölkə iqtisadiyyatı üçün neft gəlirləri hesabına iqtisadi diversfikasiyaya nail olmağın əhəmiyyəti
**III Fəsil. Neft gəlirlərindən səmərəli istifadə olunmasının yolları**
3.1 Neft gəlirlərinin makroiqtisadi göstəricilərə təsirini qiymətləndirməklə müvafiq ekonometrik modellərin hazırlanması
3.2. Neft gəlirləri hesabına qeyri-neft sektorunun inkişafı və dövlət büdcəsinin neft gəlirlərindən səmərəli istifadənin artırılması yolları
3.3. Post-muharibə dövründə dayanıqlı iqtisadi inkişafın təmin edilməsi və “yaşıl maliyyələşmə” konsepsiyasının tətbiqinin zəruriliyinin əsaslandırılması
3.4. Neft gəlirlərinin dövlət büdcəsində çəkisinin təhlili və nəticəəsaslı büdcənin hazırlanması mexanizminin təkmilləşdirilməsi istiqamətləri
**Nəticə və təkliflər**
**İstifadə edilmiş ədəbiyyat**
**İxtisarlar və şərti işarələr**

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri müəyyən edilmiş, tədqiqat prosesində istifadə edilmiş metodlar, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, habelə aprobasiyası barədə məlumatlar verilmişdir.

Dissertasiyanın **"Azərbaycan iqtisadiyyatının formalaşmasında neft amili"** adlı birinci fəslində neft gəlirlərindən istifadənin nəzəri-metodoloji aspektləri, qeyd olunan istiqamətdə dünya təcrübəsi, Azərbaycanın sosial-iqtisadi inkişafında neft gəlirlərinin rolu və təsirləri tədqiq edilmişdir.

Karbohidrogen ehtiyatlarından səmərəli istifadə siyasətinin tətbiqi nəticəsində  artan trenddə olan neft və qaz daxilolmalarını qeyri-neft sektoruna düzgün inyeksiya etməklə iqtisadi və regionların tarazlı inkişafına nail olmaq, gəlirlərin optimal idarə olunması ölkə iqtisadiyyatı üçün əhəmiyyətlidir.

Hal-hazırda bir çox neft ölkələrində neft gəlirlərinin idarə olunması üçün Fridman (1957-ci il) tərəfindən təklif olunmuş modeldən (Permanent İncome Hypothesis) istifadə olunur. Bu modelə əsasən hər il üçün xərclənə bilən neft gəlirlərinin həddi müəyyən edilir. Bu həddən əlavə qalan gəlirlər ehtiyat fonda yönəldilir. Sözügedən model xalis maliyyə aktivlərinə (net financial assets) və cari neft gəlirlərinə əsaslanır.

Neft gəlirlərinin istifadə olunmasının digər qaydası- Bird-in-hand qaydası var. Bu qaydaya əsasən neft gəlirləri maliyyə və digər aktivlərə çevrilib saxlanılır və yalnız həmin aktivlərin idarə olunmasından əldə olunan gəlirlər istifadə olunur.

Sözügedən qayda ümumiyyətlə ən mühafizəkar qayda kimi qəbul edilir və xüsusilə neft gəlirlərindən istifadəni məhdudlaşmağa meyillidir.

L. Ghalayini neft qiymətləri və iqtisadi artım arasında əlaqnin təhlili ilə bağlı araşdırmasında düzgün olaraq qeyd edir ki, həm xam neft ixrac edən (neft ölkələri),  həm də idxal edən ölkələri üçün neft qiymətlərinin dəyişkənliyi onların iqtisadi fəaliyyətində ciddi təsirlərə

malikdir. Bu həm də real tələb və təklifin dəyişməsi ilə xarakterizə olunur[1].

Eyni zamanda A. Khayati öz tədqiqatında apardığı empirik təhlillərə əsasən sübut edir ki, neft ölkələri üçün iqtisadi diversfikasiya, kapitalın səmərəliliyi, əmək məhsuldarlığı və rəqabətqabiliyyətli iqtisadiyyat mühüm əhəmiyyət kəsb edir[2].

Neft gəlirlərindən istifadənin fiskal modelinin yaradılması (The World Bank: Petroleum fiscal modelling) sözügedən gəlirlərin səmərəli istifadə və idarə olunması üçün zəruridir. Bu modelin üç əsas məqsədi mövcuddur:

1. Fiskal siyasətin təhlili zamanı ortaya çıxan nəticələrin modelləşdirilməsi;

2. Vəsaitlərin hərəkətinin mütəmadi olaraq monitorinqinin aparılması;

3. Gəlirlərin düzgün proqnozlaşdırılması və fiskal planlamanın optimal aparılması.

Neft daxilolmalarından optimal və səmərəli istifadə olunması baxımından beynəlxalq arenada Norveç modeli kimi tanınan model hazırda təbii resurslarla zəngin olan bir çox ölkələrin maraq dairəsindədir.

Ümumiyyətlə qeyd olunan model bir sıra müsbət tərəfləri ilə tanınır:

1) İstismar olunan təbii resurslar mövcud Norveç dövlətinin qanunvericiliyinə əsasən qeyd-şərtsiz xalqa məxsusdur və xalqın resurslarla bağlı qanuni maraqları və hüquqları qanunla mühafizə olunur və qanun çərçivəsində tənzimlənilir.

2) Dövlət hər zaman neft pullarından istifadə probleminə mühafizəkar yanaşmış və cari maliyyə tələbatının az hissəsi neft gəlirləri hesabına kompensasiya edilmişdir. Neft daxilolmaları daha çox fonda yığılır və sterilizasiya olunur.

3) Neft və qaz hasilatı, nəqli və daxilolmalardan istifadə ilə bağlı xüsusi monitorinq sistemi yaradılmış və təbii ehtiyatlardan

[1] Ghalayini, L. The Interaction between Oil Price and Economic Growth // Middle Eastern Finance and Economics, – 2011. №13, – p. 128-141.

[2] Khayati, A. The Effects of Oil and Non-oil Exports on Economic Growth in Bahrain // International Journal of Energy Economics and Policy. – 2019. №9(3), – p. 160-164.

istifadə siyasəti əsasən gəlirlərin nəsillər arasında optimal və ədalətli bölgüsünə fokuslanmışdır.

Müəllif tərəfindən hazırlanan qrafikdən göründüyü kimi ÜDM ilə neft sektoru arasında düz mütənasiblik var. Belə ki, illər üzrə ÜDM-in artımı neft sektoruna paralel olaraq artmışdır. Bu da o deməkdir ki, hələ də Azərbaycan iqtisadiyyatının neft gəlirlərindən asıllığı tam aradan qaldırılmayıb. Lakin son illərdə bu istiqamətdə (neft sektorunun qeyri-neft sektoru ilə əvəzlənməsi) kifayət qədər işlər görülmüşdür (Qrafik 1).




**Qrafik 1. Azərbaycan Respublikasında neft sektorunun və ÜDM-in dinamikası**

*Mənbə: Dövlət Statistika Komitəsinin məlumatları əsasında tərtib edilib*

Son illərdə dövlət büdcəsinin xərclərinin artım dinamikasına nəzər salaq.

**Cədvəl 1.**

**Dövlət büdcəsinin xərclərinin əsas istiqamətləri, milyard manatla**

| | İllər | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| **Xərclərin istiqamətləri** | **2016** | **2017** | **2018** | **2019** | **2020** | **2021** | **2022** | **2023** |
| Müdafiə və milli təhlükəsizlik | 2.19 | 2.62 | 2.84 | 3.16 | 3.76 | 4.54 | 4.90 | 5.85 |
| Təhsil | 1.75 | 1.74 | 1.96 | 2.2 | 2.77 | 3.09 | 3.7 | 4.55 |
| Elm | 0.11 | 0.11 | 0.12 | 0.12 | 0.14 | 0.15 | 0.17 | 0.12 |
| Sosial müdafiə və sosial təminat | 2.65 | 2.35 | 2.15 | 2.28 | 3.11 | 3.16 | 3.46 | 4.39 |
| Səhiyyə | 0.7 | 0.7 | 0.71 | 0.87 | 1.69 | 1.38 | 1.42 | 1.86 |
| Kənd təsərrüfatı | 0.59 | 0.51 | 0.7 | 0.83 | 0.86 | 0.91 | 0.92 | 1.2 |

*Mənbə: Cədvəl Azərbaycan Respublikası Maliyyə Nazirliyinin məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Yuxarıda qeyd olunan cədvəldən göründüyü kimi son illərdə əsas istiqamətlər üzrə dövlət büdcəsində xərclər müvafiq qaydada artırılmışdır. Xüsusilə, 2020-2022-ci illərdə dünyada baş verən COVİD-19 pandemiyası səbəbindən dünya bazarlarında neft qiymətləri enmişdir. Lakin, cədvəlin təhlili göstərir ki, həmin illərdə də prioritet istiqamətlər üzrə büdcədə xərclərin artımı təmin edilmişdir.

Azərbaycanda iqtisadi artımın əsas dinamikası uzun illər təbii resursların hesabına təmin edilməsinə baxmayaraq, 2009-cu ildə meydana gələn iqtisadi böhran şəraitində və 2014-cü ildə dünya bazarlarında neft qiymətlərinin kəskin enməsi fonunda, habelə 2020-ci ildə bütün dünyaya mənfi şok yaşadan pandemiya dövründə Azərbaycan iqtisadiyyatı ciddi risklərlə qarşılaşsa da sözügedən təlatümlərdən üzü ağ çıxmağı bacarmışdır.

Dissertasiyanın **“Neft gəlirlərindən istifadənin müasir vəziyyətinin təhlili”** adlı ikinci fəslində neft gəlirlərindən istifadədə müasir yanaşmalar, ölkəmizdə neft gəlirlərinin idarə olunması sistemi tədqiq edilmiş və Azərbaycan Respublikasında tətbiq olunan büdcə qaydasının təhlili və onun ekonometrik modellər əsasında qiymətləndirilməsi həyata keçirilmişdir.

Neftlə zəngin ölkələrdə iqtisadi inkişafın müxtəlif mərhələlərində neft gəlirləri büdcə gəlirlərinin böyük hissəsini təşkil edir. Lakin, ötən dövrün təcrübəsi göstərdi ki, bu tendensiyanın daimi

olması ölkə iqtisadiyyatı üçün riskli hesab olunur. Bu baxımdan, uzunmüddətli perspektivdə neft gəlirləri hesabına sosial-iqtisadi inkişafa nail olunmalı, iqtisadi diversifikasiya həyata keçirilməli, habelə qeyri-neft sektoru inkişaf etdirilməklə büdcə gəlirləri real sektordan vergilər və digər daxilolmalar hesabına təmin edilməlidir.

Azərbaycan neft gəlirlərindən istifadə sahəsində müəyyən etdiyi siyasəti son illərdə də inamla davam etdirərək neft sahəsində gəlirlərin səmərəli idarə edilməsinə və şəffaflığın təmin edilməsi məsələlərinə ciddi yanaşmışdır.

Ölkəmizdə Dövlət Neft Fondu yaradılmaqla əsasən aşağıdakı məsələlərin həlli nəzərdə tutulmuşdur:

- Ölkə valyutasının real məzənnəsinin məqsədəmüvafiq olmayan qaydada yüksəlməsinin qarşısını almaq;
- Fiskal (maliyyə) intizama və dayanıqlılığa nail olmaq;
- Fiskal stabilləşmə;
- Bir çox iqtisadi və sosial məqsədlər üçün yığımı təmin etmək və s.

Fikrimizcə dünya arenasında yüksək ixtisaslaşmanı təmin edən, istehsal texnologiyalarını, innovasiya potensialını artıran və tətbiq edən, habelə davamlı əlavə dəyər yarada bilən sahələri inkişaf etdirən ölkələr regional və dünya səviyyəsində rəqabətə davamlı ola biləcəklər.

Azərbaycan üçün makroiqtisadi və fiskal dayanıqlılığı təmin etmək məqsədilə effektiv büdcə idarəçiliyi və onun nəticəyönümlü büdcənin təşkili ilə uzlaşdırılması, dövlət xərclərinin optimallığının təmin edilməsi, neft daxilolmalarından rasional istifadə və büdcə gəlirlərininin neft qiymətlərinin dəyişkənliyindən asıllığının azaldılması aktual olaraq qalır.

Neft sektorunun optimal idarə olunmaması, iqtisadiyyata düzgün inyeksiya edilməməsi aşağıdakı çətinlikləri yarada bilər:

- ➢ Neft gəlirlərinin böyük hissəsinin əlavə dəyər yaradan deyil, cari xərclərin maliyyələşdirilməsinə yönəldilməsi Azərbaycan iqtisadiyyatını hər zaman neftin qiymətlərindən asılı edər;
- ➢ Neft gəlirlərinin böyük həcmdə istifadə olunaraq cari xərclərin qarşılanması iqtisadi islahatların aparılmasını ləngidir, fiskal, mübadilə, diversfikasiya siyasəti istiqamətində arxayınlığa səbəb

olur. Nəticə etibarı ilə Azərbaycanın qlobal səviyyədə rəqabətqabiliyyətli iqtisadiyyat qurmaq niyyəti reallığa çevrilmir;

- Müstəqillik əldə edildikdən sonra neft sənayesinin həmin dövrdəki vəziyyəti sübut edir ki, neft daxilolmalarının böyük həcmdə istifadə olunması nəsillərarası ədalətli bölgü baxımından düzgün deyil və belə olan halda gələcək nəsillərə yalnız korlanmış ekoloji mühit, lazımsız və köhnəlmiş infrastruktur saxlanılır;
- İqtisadiyyatda Harrod-Balassa-Samuelson effektinin yaranması. Belə izah olunur ki, ümumi qiymət və istehsal amillərinin qiymətləri sürətlə artdığından qeyri-neft istehsal sahələrinin orta və uzun dövrdə inkişafına maraq yaranmır.

Neft ölkələrinin təcrübəsi sübut edir ki, neft gəlirləri dövlət tərəfindən, əsasən, üç məqsəd üçün xərclənsə, müsbət nəticələr əldə oluna bilər:

- İnsan kapitalının inkişafına;
- Ölkə əhəmiyyətli iri infrastruktur layihələrinə;
- Ölkədə münbit mikro və makroiqtisadi mühitin təmin edilməsinə.

Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi, xüsusilə neft gəlirlərinin əsas etibarı ilə qeyri-neft sektoruna yönəldilməsi aşağıdakı iqtisadi məqsədlərə çatmağa xidmət edəcəkdir:

- Uzunmüddətli perspektivdə dövlət büdcəsinin neft gəlirlərindən asıllığının azaldılması;
- İqtisadi sferada ilkin olaraq qeyri-neft sektorunun, o cümlədən qeyri-neft sənayesinin intensiv genişləndirilməsi hesabına davamlı və dayanıqlı iqtisadi inkişafa nail olunması;
- Regionlarda sosial-iqtisadi inkişafın dəstəklənməsi, məşğulluğun təmin olunması;
- İqtisadiyyatın şaxələndirilməsinə zəmin yaradılması;
- Ölkədə qeyri-neft amilinin ÜDM-də çəkisinin artırılması və dövlət büdcəsinin gəlirlərində qeyri-neft gəlirlərinin payının artırılması;
- İnnovativ istehsal üsullarının qeyri-neft sektorunda tətbiqinin təmin edilməsi və iqtisadiyyatda əsaslı struktur dəyişiklərinə nail olunması;

- İxrac potensialının artırılması, beynəlxalq arenada rəqabətqabiliyyətli Azərbaycan məhsullarının layiqli yer tutması[3].

Sözügedən fəsildə icmal büdcənin baza xərclərinin dəyişməsinin qeyri-neft ÜDM-ə, icmal büdcənin qeyri-neft gəlirlərinə və ümumilikdə icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft ÜDM-ə nisbət göstəricisinə necə təsir etdiyinin qiymətləndirilməsi aparılmışdır[4]. Qiymətləndirmə iki tərtibli ən kiçik kvadratlar üsulu tətbiq olunmaqla struktur tənliklər sisteminin həll edilməsinə əsaslanır. Model EViews statistik proqram paketində 2007-2023-ci ilin məlumatları əsasınada (tənliklərdə zaman intervalı dataların emalı nöqteyi-nəzərindən fərqli ola bilər) empirik olaraq qurulmuşdur.

**Modellərdə istifadə olunan məlumatlar**




**Şəkil 1. İki tərtibli ən kiçik kvadratlar üsulu ilə tənliklər sisteminin həlli (EViews nəticəsi)**

Model iki tənlikdən ibarətdir. Birinci tənlik icmal büdcənin baza xərcləri və qeyri-neft ÜDM, ikinci tənlik isə, qeyri-neft ÜDM və icmal büdcənin qeyri-neft gəlirləri arasındakı əlaqəni əks etdirir. Bu tənliklər birgə sistem şəklində yerinə yetirilərək empirik nəticələr əldə olunur.

LOG(NON_OIL_GDP), LOG(BASE_EXP) və LOG(NON_OIL_REV) sıraları üzrə Augmented Dickey Fuller (ADF) və Phillips Perron (PP) test nəticələrinə əsasən sıralar 5%-lik statistik əhəmiyyətlilik səviyyəsində stasionardır.

Beləliklə, qeyri-neft/qaz ÜDM-in 1% artımı icmal büdcənin qeyri-neft/qaz gəlirlərinin 1.18% artımına səbəb olduğu və icmal büdcənin baza xərclərinin 1% artımı qeyri-neft ÜDM-ni 1.20%

---

[3] Bağırov, O.M. İqtisadiyyatın diversifikasiyasının dünya təcrübəsi // – Bakı: AMEA-nın Xəbərləri. İqtisadiyyat seriyası, – 2018, №4, – s. 141-145.

[4] Ortamüddətli xərclər çərçivəsinin hazırlanması Qaydası // Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 24 avqust tarixli 235 nömrəli Fərmanı. – Bakı, 2018.

artırdığını nəzərə aldıqda bu isə, öz növbəsində icmal büdcənin qeyri-neft gəlirlərini 1.42% (1.20*1.18=1.42) artırdığı nəticəsi əldə olunur.[5]

Dissertasiyanın **“neft gəlirlərindən səmərəli istifadə olunmasının yolları”** adlı üçüncü fəslində neft gəlirlərinin makroiqtisadi göstəricilərə təsirinin qiymətləndirməsi aparılmış, habelə qeyri-neft sektorunun inkişafı və dövlət büdcəsinin neft gəlirlərindən səmərəli istifadənin artırılması yolları göstərilmiş, habelə post-muharibə dövründə dayanıqlı iqtisadi inkişafın təmin edilməsi və “yaşıl maliyyələşmə” konsepsiyasının tətbiqinin zəruriliyi əsaslandırılılmışdır.

Bununla yanaşı sözügedən fəsildə neft gəlirlərinin dövlət büdcəsində çəkisinin təhlili və nəticəəsaslı büdcənin hazırlanması mexanizminin təkmilləşdirilməsi istiqamətləri müəyyən edilmişdir.

Azərbaycan iqtisadiyyatının əsasını təşkil edən neft sektoru üzrə əldə olunan gəlir bütövlükdə ölkə üzrə iqtisadi artımı şərtləndirərək dövlət büdcəsinin gəlirlərinin artmasına təsir edərək büdcə xərclərinin optimal tənzimlənməsində əsaslı rol oynayır. Bu baxımdan neft gəlirlərinin büdcə xərclərinə təsirinin qiymətləndirilməsi mühüm iqtisadi əhəmiyyət kəsb edir. Aşağıdakı qrafikdə Azərbaycan Respublikası üzrə 2006-2023-cü illəri əhatə edən dövrdə büdcə xərcləri və neft gəlirlərinin dinamikası verilmişdir (Qrafik 2).

[5] Qasımlı, V.Ə. Azərbaycanda büdcə qaydalarının təhlili və iskal dayanıqlıq / V.Ə. Qasımlı, O.T. Sadıqov, A.S. Süleymanov // “İqtisadi islahatlar” elmi-analitik jurnal –2025, №2(11)-2024, – s. 7-36.




**Qrafik 2. 2006-2023-cü illər üzrə neft gəlirlərinin və dövlət büdcəsi xərclərinin dinamikası, milyard manatla**

*Mənbə: Dövlət Statistika Komitəsinin məlumatları əsasında tərtib edilib*

Yuxarıda təqdim olunan qrafikdən göründüyü kimi neft gəlirlərinin artmasına uyğun olaraq tədqiq olunan dövr üzrə büdcə xərclərinin inkişaf meyli də həmin dinamika ilə xarakterizə edilmişdir. Təhlillər sübut edir ki, hər iki göstərici arasında əsaslı asılılıq mövcuddur. Neft gəlirləri ilə büdcə xərcləri arasındakı asılılığın korrelyasiya-reqressiya əlaqəsini müəyyən etmək üçün EViews-12 tətbiqi proqram paketindən və ən kiçik kvadratlar üsulundan istifadə etməklə aşağıdakı nəticəni alarıq (Cədvəl 2).

**Cədvəl 2. Neft gəlirləri ilə büdcə xərcləri arasındakı asılılığın korrelyasiya-reqressiya əlaqəsi (E-views-12)**

Dependent Variable: Y
Method: Least Squares
Date: 02/05/24 Time: 22:45
Sample: 2006-2023
Included observations: 18

| Variable | Coefficient | Std. Error | t-Statistic | Prob. |
|---|---|---|---|---|
| X | 1.783510 | 0.207341 | 8.601827 | 0.0000 |
| C | -784.3561 | 2278.675 | -0.344216 | 0.7355 |

| | | | |
|---|---|---|---|
| R-squared | 0.831444 | Mean dependent var | 17633.99 |
| Adjusted R-squared | 0.820207 | S.D. dependent var | 7579.401 |
| S.E. of regression | 3213.814 | Akaike info criterion | 19.09844 |
| Sum squared resid | 1.55E+08 | Schwarz criterion | 19.19646 |
| Log likelihood | -160.3367 | Hannan-Quinn criter. | 19.10818 |
| F-statistic | 73.99143 | Durbin-Watson stat | 1.246450 |
| Prob(F-statistic) | 0.000000 | | |

*Mənbə: Eviews -12 proqram tətbiqindən çıxarış əsasında tərtib olunub*

Eviews-12 tətbiqi proqram vasitəsilə hazırlanmış cədvəldən göründüyü kimi səbəb amili kimi neft gəlirlərini ifadə edən X izahedici dəyişənin əmsalı, onun standart səhvdən əhəmiyyətli drəcədə böyükdür (t=8,6). Bu isə alınmış nəticə üzrə əmsalın statistik əhəmiyyətliliyini xarakterizə edir.

Əldə edilmiş nəticələr əsasında reqressiya tənliyi aşağıdakı formada verilir:

**Y = 1.78351048828*X - 784.3560509 (1)**

Burada: (t) (8,6) (-0,34) $R^2$=0,820, DW=1,2464

Göründüyü kimi neft gəlirləri ilə büdcə xərcləri arasında Çeddok şkalasına uyğun olaraq yüksək korrelyasiya əlaqəsi vardır. Modelə daxil olan izahedici amil kimi neft gəlirlərini **ifadə edən x amili büdcə xərclərini 82% izah edir. Digər amillər hesabına isə büdcə xərcləri 18% izah edilir.**

Modelinin spesifikasiyasının düzgünlüyünü yoxlamaq məqsədi ilə avtokorrelyasiyanın olub-olmaması yoxlanılmalıdır. Bu göstərici əsasən Darbon-Uotson statistikasının meyarları əsasında

avtokorrelyasiya haqqında nəticənin formalaşmasına uyğun olaraq müəyyən edilir. Bu məqsədlə, modeldə qalıqların avtokorrelyasiyasını Darbon-Uotsonun böhran nöqtələri əsasında yoxlayaq.

Cədvələdən də göründüyü kimi Darbon-Uotson statistikası (DW) 0,464–ə bərabərdir. 95%-li inamlı intervalla, $\alpha = 0{,}05$ əhəmiyyətlilik səviyyəsində izahedici dəyişən (m=1), eyni zamanda n=17 müşahidə dövrü üçün Darbon-Uotsonun böhran nöqtələri: $\boldsymbol{d_l = 1,133}$, $\boldsymbol{d_u = 1,381}$ olmuşdur.

Əgər $d_l \leq \text{DW} < d_u$ olarsa, qeyd edilən göstəricilər arasında avtokorrelyasiyanın mövcudluğu haqqında nəticə təyin edilməmiş olacaqdır.

$d_l = 1{,}133 \leq \text{DW} = 1{,}264 < d_u = 1{,}381$ olduğundan tədqiq olunan göstəricilər arasında avtokorrelyasiyanın mövcud deyildir. Bu da bir daha alınan reqressiya tənliyinin statistik əhəmiyyətli olması ilə yanaşı, qurulmuş modelin də adekvat olduğunu sübuta yetirir.

Göstərilənlərlə yanaşı sərbəst dəyişənin (əlaqə tənliyində olan) əmsalına, habelə səbəb amili və nəticə amilinin hesabi orta qiymətləri də nəzərə alınmaqla hesablanmış elastiklik əmsalı aşağıdakı nəticəni verir:

$$\mathbf{E_1=(\alpha_1\times\bar{x})/\bar{y}=(1{,}7835\times10327{,}02)/17633{,}99=1{,}04474\ (3)}$$

Elastiklik əmsalına görə Azərbaycanda neft gəlirlərinin 1% artması büdcə xərclərinin 1,045% artması ilə nəticələnir.

Qeyd etmək lazımdır ki, neft gəlirlərinin artması ölkə üzrə ÜDM-in artmasını şərtləndirən mühüm amillərdən biridir. Statistik məlumatlar əsasında bu göstəricilər arasındak korrelyasiya-reqressiya asılılığını aşağıdakı qrafikdə təsvir edilmiş formada olduğunu görərik (Qrafik 3).




**Qrafik 3. Neft gəlirləri ilə ÜDM arasındakı korrelyasiya-reqressiya asılılığı**

*Mənbə: Eviews -12 proqram tətbiqindən çıxarış əsasında tərtib olunub*

Qrafikdən göründüyü kimi neft gəlirləri ilə ÜDM arasında $y = 5{,}1088x + 9573{,}9$ xətti reqressiya tənliyi ilə ifadə olunan asılılıq vardır. Çeddok şkalasına görə bu göstəricilər arasında korrelyasiya asılılığı hiss olunan səviyyədədir ($R^2 = 0{,}5898$).

Yuxarıda təsbit olunan göstəricilər əsasında (sərbəst dəyişənin əmsalı, səbəb və nəticə amili) elastiklik əmsalını aşağıdakı kimi hesablaya bilərik:

$$E_1=(\alpha_1\times\bar{x})/\bar{y}=(5{,}1088\times10327{,}02)/62332{,}1126=0{,}84641232 \quad (4)$$

Elastiklik əmsalına görə Azərbaycanda neft gəlirlərinin 1% artması ÜDM-in 0,85% artması ilə nəticələnir. Bu da neft gəlirlərinin ÜDM-ə təsirinin yüksək səviyyədə olduğunu göstərir.

Məlumdur ki, "Yaşıl iqtisadiyyat" davamlı iqtisadi və sosial inkişafa əsaslanan, insanların həyat şəraitini yaxşılaşdıran, gələcək nəsilləri ekoloji çatışmazlıqdan qoruyan və ekoloji risklərin aradan qaldırılmasını təmin edən iqtisadiyyat kimi başa düşülür.

Qeyd olunmalıdır ki, dünyada mövcud olan tendensiyalara uyğun olaraq ölkəmizdə yaşıl iqtisadiyyatın inkişafı ilə bağlı təşəbbüslər həyata keçirilməkdədir.

İşğaldan azad olunmuş ərazilərdə Azərbaycan Respublikasının “yaşıl enerji” zonasına çevrilmək imkanları genişdir və bu da öz növbəsində “yaşıl iqtisadiyyat”ın ölkəmizdə formalaşmasına təkan verəcəkdir. Hazırda həmin ərazilərin bərpası prosesi “yaşıl iqtisadiyyat” prinsiplərinə uyğun icra edilir[6].

## ƏSAS NƏTİCƏLƏR

Tədqiqatın və araşdırmaların nəticəsi olaraq aşağıdakılar təklif olunur:

**1.** Orta və uzunmüddətli perspektivdə dövlət büdcəsinin neft gəlirlərindən asılı olduğu müəyyən edilmişdir.

Bununla əlaqədar ilk növbədə ölkə iqtisadiyyatının neftdən asılılığı minimuma endirilməli, ölkə iqtisadiyyatını rəqabətqabliyyətli milli iqtisadiyyata çevirmək, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması istiqamətində tədbirləri davam etdirmək dövlətin əsas strateji hədəflərindən biri olmaldır. Beynəlxalq aləmdə ixrac potensialının və rəqabət qabiliyyətli məhsulların çeşidi və həcmi artırılmalıdır. Habelə, iqtisadi sahədə ilk növbədə qeyri-neft sektorunun, o cümlədən qeyri-neft sənayesinin genişləndirilməsi hesabına davamlı iqtisadi inkişafa, fiskal və monitar dayanıqlılığa nail olunmalıdır.

**2.** Büdcə planlaşdırmasının proqram-məqsədli metodlarının tətbiq sahələrinin genişləndirilməsi və ortamüddətli büdcə planlaşdırılmasının təkmilləşdirilməsi zəruridir.

Qeyd olunanlarla əlaqədar təklifləri aşağıdakı kimi təsnifləşdirmək olar:

- Büdcə xərclərinin istiqamətlərinin OMXÇ ilə uzlaşdırmaq və xərclərin əsasən məqsədli dövlət proqramları ilə icrasını həyata keçirtmək;
- OMXÇ-nin tətbiqi zamanı neft gəlirlərindən istifadənin bu çərçivə ilə uzlaşdırmaq;
- ÜDM-nin artım dinamikası ilə büdcə xərclərinin artırılmasını əlaqələndirmək;

[6] Qasımlı, V.Ə. Yaşıl iqtisadiyyat / V.Ə. Qasımlı, R.Z. Hüseyn, R.F. Hüseynov [və b.] – Bakı: –2022, – s. 116-122

- İqtisadi və sosial prioritetlərlə büdcə vəsasitlərinin bölüşdürülməsi prosesini əlaqələndirmək;

- Nəticəyönümlü büdcələşdirməyə keçmək.

**3.** Uzunmüddətli dayanıqlı iqtisadi inkişafın təmin edilməsi, bilik iqtisadiyyatının formalaşdırması, elmtutumlu texnologiyanın və innovativ fəaliyyətinin genişləndirilməsi yolu ilə rəqabətqabliyyətli məhsulların istehsalını sürətləndirməsi mühüm əhəmiyyət kəsb edir.

İnnovativ istehsal üsullarının qeyri-neft sektorunda tətbiqinin təmin edilməsi və iqtisadiyyatda əsaslı struktur dəyişiklərinə nail olunması, habelə dövlət büdcəsinin xərcləri ilə iqtisadiyyatın texnoloji və intellektual bazasının stimullaşdırılmasının təmini məqsədəuyğundur.

**4.** İxtisaslı və professional kadrlar hazırlamaqla insan kapitalının inkişaf etdirilməsi və elmi infrastrukturun təkmilləşdirilməsi, elmin maddi-texniki bazasının modernləşdirilməsi müasir rəqabətqabiliyyətli iqtisadiyyatın əsas şərtlərindəndir.

Hesab edirik ki, neft kapitalının insan kapitalına çevrilməsi daim diqqət mərkəzində saxlanılmalı, dövlət büdcəsindən və ya ARDNF-dən bu istiqamətə vəsait ayrılması mütəmadi olaraq təmin edilməlidir.

**5.** Hökumətin gələcəkdə baş verə biləcək böhranlı vəziyyət üçün ehtiyatları artırması, qeyri-neft büdcə kəsirini minimuma endirməsi (kənd təsərrüfatı, turizm, innovasiya və rəqəmsal texnologiyaları inkişaf etdirməklə), uzunmüddətli perspektiv üçün büdcənin dayanıqlılığının əsas hədəf olaraq seçilməsi ölkənin maliyyə sabitliyinin təmin edilməsi baxımından əsas tələblərdəndir.

Dissertasiyada həyata keçirilmiş mövcud büdcə qaydasının ekonometrik model əsasında təhlilinin nəticəsinə əsasən qeyd olunmalıdır ki, icmal büdcənin baza xərclərinin 1.0% artımı qeyri-neft/qaz ÜDM-in 1.2% artımına səbəb olur.

Eyni zamanda qeyri-neft/qaz ÜDM-in 1% artımı icmal büdcənin qeyri-neft/qaz gəlirlərinin 1.18% artımına səbəb olacaqdır. İcmal büdcənin baza xərclərinin 1% artımı qeyri-neft ÜDM-ni 1.20% artırdığını nəzərə alsaq bu isə, öz növbəsində icmal büdcənin qeyri-neft gəlirlərini 1.42% (1.20*1.18=1.42) artıracağı nəticəsi əldə olunur.

Digər bütün şərtlər sabit saxlanıldığı halda, icmal büdcənin baza xərclərinin 1% artımı icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-

neft ÜDM-ə nisbətinin sıfra yaxınlaşma meyli göstərdiyini praktik olaraq sübut olunur.

Qeyd olunmalıdır ki, neft gəlirlərinə uyğun olaraq protsiklik və ya ekspansiv fiskal siyasətin tətbiqi digər əksər neft ölkələrində olduğu kimi, Azərbaycanda da büdcə gəlirlərinin neft sektorundan daxilolmalardan asılılığı riskini saxlayacaqdır.

Bununla əlaqədar ilk növbədə fiskal siyasətin protsikilliyini məhdudlaşdırmaqla ekspansiv büdcə siyasətinin əsasən qeyri-neft gəlirləri hesabına həyata keçirilməsi məqsədəuyğundur. Məhz bu kimi prosesin tətbiqi neft gəlirlərinin dövlət büdcəsi vasitəsilə istifadəsi mexanizminin əsas amillərindən hesab olunur.

**6.** Hər ilin dövlət büdcəsi hazırlanarkən xərclərin artırılmasını yalnız vergi gəlirlərinin artan hissəsi qədər və Dövlət Neft Fondunun aktivlərinin idarə olunmasından əldə olunan gəlirlər hesabına artırmaq məqsədəuyğundur.

Qeyd olunmalıdır ki, hazırda bir çox qabaqcıl neft ölkələrində məhz bu sistemdən istifadə olunur. Azərbaycan Respublikası da ölkədə iqtisadiyyat üçün əsaslı infrastruktur qurulduqdan və mövcud bir sıra sosial problemlər həll edildikdən, xüsusilə azad edilmiş torpaqlara qayıdış təmin edildikdən sonra, habelə qeyri-neft sektorunun inkişafı təmin edildikdən və neft gəlirlərinin büdcə gəlirlərində çəkisi azaldıqdan sonra bu sistemə keçməlidir. Həmçinin, dövlət büdcəsinə transfertlərin yalnız məqsədli dövlət proqramların maliyyələşdirilməsi üçün istifadə edilməsi məqsədəmüvafiq hesab olunur.

**7.** Büdcə prosesində islahatların əhəmiyyətli aspektlərindən biri də ictimai iştirakın və şəffaflığın gücləndirilməsi olmalıdır. Dünyanın qabaqcıl ölkələrində bu kimi islahatlara xüsusi önəm verilir. İctimai maliyyənin idarəolunmasında büdcə şəffaflığının tələbi və təmini dünyada büdcə siyasətinin ən vacib nailiyyətlərindən biri hesab olunur.

**8.** Neft gəlirləri ilə büdcə xərcləri və ÜDM arasında asılılığın korrelyasiya və reqressiya əlaqəsinin təhlili göstərir ki, Azərbaycanda neft gəlirlərinin 1% artımı büdcə xərclərini 1,045% artması ilə nəticələnir.

Eyni zamanda neft gəlirlərinin 1% artımı ÜDM-in 0,85% artmasına səbəb olur. Bu da neft gəlirlərinin hazırda büdcə xərclərinə

və ÜDM-ə təsirinin yüksək səviyyədə olduğunu sübut edir. Bu baxımdan ölkədə qeyri-neft amilinin ÜDM-də çəkisinin artırılması və dövlət büdcəsinin gəlirlərində qeyri-neft gəlirlərinin payının artırılması labüddür.

Bu məqsədlə regionlarda sosial-iqtisadi inkişafı dəstəkləmək və məşğulluğu təmin etmək zəruridir. Bununla yanaşı, tədqiqat prosesində aşkar edilmişdir ki, qeyd olunan məsələ iqtisadiyyatın şaxələndirilməsinə zəmin yaratmaq son illərdə neft ölkələri üçün əsas prioritet olmuşdur. Xüsusi ilə 2014-cü və 2020-ci illərdə neft qiymətlərinin dünya bazarında enməsi fonunda deyə bilər ki, iqtisadiyyatın bir istiqamətli inkişafı neft qiymətlərinin voletelliyi baxımdan hər zaman risklidir.

**9.** Dövlət maliyyə nəzarətinin təkmilləşdirilməsi və səmərəliliyinin artırılması zəruri olaraq qalmaqdadır və bununla bağlı aşağıdakılar tövsiyə olunur:

- dövlət büdcəsinin hazırlanması zamanı büdcə prosesinin iştirakçıları arasında informasiya mübadiləsi sisteminin yaxşılaşdırılması;
- büdcə prosesi boyunca hakimiyyət orqanlarının, maliyyə orqanlarının və büdcə təşkilatlarının büdcə səlahiyyətlərinin sərhədlərinin müəyyənləşdirilməsi, büdcə səlahiyyətlərinin reallaşdırılmasına nəzarət;
- büdcə təsnifatının təkmilləşməsi, gəlir və xərclərin nəticəəsaslı büdcəyə uyğunlaşdırılması.

**10.** Fiskal dayanıqlılığa nail olmaq makroiqtisadi sabitliyə zəmin yaradacaqdır. Qarşıya qoyulan məqsədə çatmaq üçün dövlət bəzən büdcə xərclərinin miqdarını artırmaq və ya vergi dərəcələrini azaltmaq yoluyla genişlədici fiskal siyasət, bəzən də əksini etməklə daraldıcı fiskal siyasət yürüdür.

Aparılmış empirik tədqiqatlara görə, büdcə xərclərinin effektivliyi seçilmiş tədqiqat obyektindən asılı olaraq dəyişir. Azərbaycan üçün aparılmış empirik araşdırmalarda büdcə xərclərinin qeyri-neft sektoru üzərində stimullaşdırıcı təsiri olduğu üzə çıxır. Bu baxımdan qeyri-neft gəlirlərinin ÜDM-də və dövlət büdcəsində payının artırılması və ÜDM-yə nisbətdə dövlət borcunun optimal həddini təyin etmək labüd hesab olunur.

**11.** Neft sektoruna (sahəsinə) investisiya qoyuluşlarının dinamikası və həmin strukturda baş verən dəyişikliklərin tədqiq edilməsi, habelə investisiya layihələrinin seçimində sərt mexanizmlərin tətbiq olunması, bu layihələrin məqsədyönlülüyü və verimliliyinin (faydalılığının) ən başlıca prinsiplər kimi qəbul edilməsi əsas şərt olaraq qalmaqdadır.

**12.** "Yaşıl iqtisadiyyat"ın formalaşdırılması ilə bağlı mövcud potensialın reallaşdırlması və "yaşıl maliyyələşmə" təşəbbüsünün genişləndirilməsi dayanıqlı sosial-iqtisadi inkişaf üçün əsas çağırışlardandır.

Bu baxımdan sözügedən istiqamətdə təşəbbüslərin genişləndirlməsi

**13.** Ekonometrik modellərdən əldə olunan əmsallar göstərir ki, qeyri-neft ÜDM-də qeyri-ticari sektorun payı ticari sektora nisbətən daha böyükdür və icmal büdcənin baza xərclərinin artımı qeyri-ticari qeyri-neft ÜDM-i daha çox artırır.

Ticari qeyri-neft ÜDM-in 1% artımı icmal büdcənin qeyri-neft gəlirlərini qeyri-ticari qeyri-neft ÜDM-ə nisbətən daha çox artımına səbəb olur. Bu da icmal büdcənin qeyri-neft gəlirlərinin ticari qeyri-neft ÜDM-dən daha ciddi asılı olduğunu sübut edir.

Qeyd olunanlarla əlaqədar baza xərclərinin ticari qeyri-neft ÜDM-in artımını stimullaşdırılmasına yönəldilməsi təklif olunur.

**14.** Post-muharibə dövründə işğaldan azad olunmuş tarixi ərazilər nəzərə alınmaqla yeni iqtisadi inkişaf modelinə uyğun olaraq neft gəlirləri əsasən ölkə iqtisadiyyatının prioritet istiqamətlərinin inkişafının sürətləndirilməsinə, habelə müasir sənaye və iqtisadi zonalarının yaradılmasına və dəstəklənməsinə yönəldilməlidir.

Eyni zamanda yeni inkişaf dönəmində və azad edilmiş ərazilərdə bərpa prosesində yaşıl enerjidən istifadə olunması, yaşıl enerji zonasının yaradılması məsələlərinin diqqətdə saxlanılması tövsiyə olunur. Çünki təmiz ətraf mühit və enerji təhlükəsizliyi məsələləri müasir dünyanın əsas çağırışlarındandır.

**Dissertasiya işinin əsas müddəaları, əldə olunan nəticə və təkliflər dərc olunmuş aşağıdakı elmi əsərlərdə əks olunmuşdur:**

1. Sadıqov, O.T. Kiçik və orta sahibkarlığın inkişafına dövlət dəstəyinin zəruriliyi // – Bakı: Azərbaycan Respublikası Maliyyə Nazirliyi-Maliyyə və uçot jurnalı, – 2016. №294, – s.39-43.

2. Sadıqov, O.T. Azərbaycan Respublikasında kənd təsərrüfatının müasir vəziyyətinin təhlili və onun inkişaf perspektivləri // – Bakı: Azərbaycan Respublikası Maliyyə Nazirliyi-Maliyyə və uçot jurnalı, – 2018. №312, – s. 38-47.

3. Sadıqov, O.T. Neft gəlirlərinin dövlət büdcəsinə köçürülməsini tənzimləyəcək "qızıl qayda" mexanizminin qəbul edilməsinin zəruriliyi və "Ortamüddətli xərclər çərçivəsi" // Doktorantların və gənc tədqiqatçıların XXII respublika elmi konfransının materialları, – Bakı: – 22-23 noyabr, – 2018, – s. 357-359.

4. Sadıqov, O.T. İnnovasiyaların və insan kapitalının inkişafı ilə məşğulluq arasında qarşılıqlı əlaqənin təhlili // – Bakı: Azərbaycan Dövlət Statistika Komitəsi-"Statistika xəbərləri" elmi-praktik jurnal, – 2019. №2/2019, – s.69-76.

5. Sadıqov, O.T. Neft gəlirləri vasitəsi ilə qeyri-neft sektorunun (non-oil sector) inkişaf etdirilməsi və iqtisadi diversfikasiya // – Bakı: Azərbaycan Dövlət İqtisad Universitetinin elmi xəbərləri, – 2019. №7, – s. 118-128.

6. Sadıqov, O.T. Neft gəlirlərinin dövlət büdcəsində çəkisinin təhlili və nəticəəsaslı büdcənin hazırlanması mexanizmi // – Bakı: Azərbaycan Dövlət İqtisad Universitetinin elmi xəbərləri, – 2019. №7, – s. 102-118.

7. Sadıqov, O.T. Azərbaycanın sosial-iqtisadi inkişafında neft gəlirlərinin rolu // Doktorontların və gənc tədqiqatçıların XXIII Respublika Elmi Konfransının Materialları, – Bakı:– 2019, – s. 368-370.

8. Sadıqov, O.T. Azərbaycan Respublikasının dövlət neft fondu və fond tərərfindən dövlət büdcəsinə edilən transfertlərin qiymətləndirilməsi // – Bakı: Azərbaycan Dövlət İqtisad Universitetinin elmi xəbərləri, – 2019. №7, – s. 82-97.

9. Sadıqov, O.T. Neft gəlirlərinin dövlət büdcəsi vasitəsi ilə istifadə olunmasının səmərəli yolları // – Bakı: AMEA-nın Xəbərləri. İqtisadiyyat seriyası, – 2019. №2019-3, – s. 21-31.

10. Sadigov O.T. Effective ways to inject oil Revenues into the economy in oil countries // International Journal of Energy Economics and Policy. – 2020. №10(2), – p.319-323.

11. Sadıqov, O.T. Neft gəlirlərinin idarə olunmasında müasir çağırışlar // – Bakı: Azərbaycan Dövlət Statistika Komitəsi-“Statistika xəbərləri” elmi-praktik jurnal, – 2019. №4/2019, – s. 69-76.

12. Sadigov O.T. Economic development and sustainable fiscal policy for oil countries // Economic and Social Development, 54th International Scientific Conference on Economic and Social Development, – Novosibirsk: – 21-22 may, – 2020, – p. 183-189.

13. Sadigov O.T. Oil revenues, fiscal Framework and Economic development: The case of Azerbaijan // Economic and Social Development, 57th International Scientific Conference on Economic and Social Development, – august – 2020, – p. 126-132.

14. Əliyev, Ü.Q. Azərbaycan Respublikasında Koronavirus (COVID-19) pandemiyası və post pandemiya dövründə büdcə-vergi siyasəti / Ü.Q.Əliyev, O.T. Sadıqov, // – Bakı: Azərbaycanın Vergi Jurnalı, – 2021. №1 (141), – s. 121-131.

15. Əliyev, Ü.Q. Efficient use of oil revenues in post-pandemic and post-conflict periods: The case of Azerbaijan / Ü.Q.Əliyev, O.T. Sadıqov, // – Baku: TURAN Center for Strategic Researches-IV Scientific Conference of Economics and Management Researches, Conference special issue, – 2022 June. №14, – p. 251-258.

16. Qasımlı, V.Ə. Azərbaycanda büdcə qaydalarının təhlili və iskal dayanıqlıq / V.Ə. Qasımlı, O.T. Sadıqov, A.S. Süleymanov // “İqtisadi islahatlar” elmi-analitik jurnal –2025, №2(11)-2024, – s. 7-36.



Dissertasiyanın müdafiəsi 14 may 2025-ci il tarixində saat 14:00-da Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində fəaliyyət göstərən ED 2.10 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1001, Bakı şəhəri, İstiqlaliyyət küç., 6

Dissertasiya işi ilə Azərbaycan Dövlət İqtisad Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət İqtisad Universitetinin rəsmi internet saytında (www.unec.edu.az) yerləşdirilmişdir.

Avtoreferat 10 aprel 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 19.03.2025
Kağızın formatı: 60x84 1/16.
Həcmi 1 ç.v. (40485 işarə). Tiraj 100.

*"AA – Poliqraf" istehsalat-kommersiya birliyində hazır diopozitivlərdən istifadə olunmaqla çap edilmişdir.*
*Əlaqə üçün: capevi@internet.ru / (+99455) 201-2809*